# Nərimanov rayonunda 22 iyul Milli Mətbuat Günü münasibətilə tədbir

Azərbaycan mətbuatı yarandığı gündən zəngin və çoxşaxəli inkişaf yolu keçmişdir. Milli mətbuatımız azad söz, vətəndaş cəmiyyəti müstəqil dövlət uğrunda mübarizə vasitəsi kimi, həm də ictimai-mədəni əhəmiyyətə malikdir.

Azərbaycan mütəfəkkiri Həsən bəy Zərdabi tərəfindən nəşr olunan "Əkinçi" qəzeti ilə təməli qoyulmuş milli mətbuatımızın yaradılmasından keçən 140 il Azərbaycan milli mədəniyyətinin inkişafında təkamül illəri olmuş, xalqımızın qabaqcıl fikir xadimləri məhz mətbuatımızın səhifələrindən öz işıqlı ideyalarını doğma xalqa aşılaya bilmişdir.

İyul ayının 21-də Bakının Nərimanov rayonunda Milli Mətbuatın 140 illiyi ilə bağlı tədbir keçirildi. İlk öncə icra hakimiyyətinin foyesindəki ulu öndərimiz, dahi şəxsiyyət Heydər Əliyevin büstü önünə tər gül-çiçək dəstələri düzüldü.

Tədbiri giriş sözü ilə açan Nərimanov Rayon İcra Hakimiyyəti başçısının müavini Şahmar İbadov mərasimə qatılan insanları mətbuat günü münasibətilə təbrik etdi. O, vurğuladı ki, 1875-ci il iyul ayının 22-də "Əkinçi" qəzetinin ilk nömrəsi nəşr olunub. Qəzetin çıxması ərəfəsində Həsən bəy gərgin psixoloji gərginlik, həyəcan keçirirdi: texniki qüsur ucbatından "Əkinçi"ni istənilən səviyyədə çıxara bilməyəcəyindən ehtiyat edirdi. Lakin böyük zəhməti, diqqəti və fədakarlığı nəticəsində öz arzusuna çatır: "Əkinçi" qəzeti birinci nömrəsinin yüksək nəşri ilə Azərbaycan tarixində yeni səhifəyə imza atdı.



Daha sonra danışıq üçün söz millət vəkili Adil Əliyevə verildi. O, vurğuladı ki, Azərbaycan mətbuatının sürətli inkişafı respublikamızda dünya standartlarına cavab verən kütləvi informasiya vasitələrinin yaranmasına gətirib çıxarmışdır. Hazırda hüquqi, demokratik və vətəndaş cəmiyyəti qurmaq istiqamətində irəliləyən Azərbaycanda 4 mindən çox müxtəlif kütləvi informasiya vasitələri – qəzet, jurnal, informasiya agentliyi və teleradio şirkətləri qeydə alınmışdır.

Azərbaycan Prezidenti cənab İlham Əliyev demişdir: **"Azərbaycanda mətbuat azadlığı da mövcuddur... biz bu məqsədlə çox ciddi addımlar atırıq. Söz azadlığının, mətbuat azadlığının təmin olunması bizim prioritet məsələmizdir və deyə bilərəm ki, Azərbaycan bu sahədə böyük uğurlara nail olmuşdur".**

Mətbuat həyatın güzgüsüdür. Mən bu sahədə çalışanların hamısına ədalətli olmağı, doğru-dürüst yazmağı, həqiqəti əks etdirməyi, xalqımızın, dövlətimizin maraqlarına xidmət etməyi arzulayıram.

Milli mətbuatın 140 illiyinə həsr olunmuş tədbirdə Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinə Dövlət Dəstəyi Fondunun icraçı direktoru Vüqar Səfərli, Azərbaycan Mətbuat Şurasının sədri Əflatun Amaşov, "İki Sahil" qəzetinin baş redaktoru Vüqar Rəhimzadə və başqaları çıxış etdilər.

Rayon icra hakimiyyəti başçısının birinci müavini Şahmar İbadov mərasimi yekunlaşdıraraq media təmsilçilərinə müasir cəmiyyət quruculuğu, milli həmrəylik və tolerantlığın möhkəmləndirilməsi, mənəvi-əxlaqi həmrəyliyin qorunub saxlanması və təbliği istiqamətində uğurlar dilədi.



Tədbirin sonunda bir qrup mətbuat işçisinə milli mətbuatın inkişafındakı xidmətlərinə görə rayon icra hakimiyyətinin fəxri fərman və hədiyyələri təqdim olundu.

**Qədir ASLAN,**
**"Respublika".**